

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 168 (23.079)

7 sentyabr 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Xorvatiya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 6-da rəsmi qarşılanma mərasimi olub.

Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə təkbətək, daha sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin iştirakı ilə Azərbaycan-Xorvatiya sənədlərinin imzalanması mərasimi olub.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç mətbuata bəyanatlarla çıxış ediblər.

Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zaqrebdə "Xorvatiya Qurbanlarının Səsi-Ağrı Divarı" abidəsini ziyarət edib.



## Operativ vergi nəzarəti tədbirləri gücləndirilir

*Bu ilin 8 ayı ərzində Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və onun yerli vergi orqanları tərəfindən operativ vergi nəzarəti tədbirləri davam etdirilib.*

Bəhs olunan dövrdə muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən ödəyicilərin aşkar edilməsi, xarici valyuta sərvətlərinin ödəniş vasitəsi olaraq qəbul edilməsi, işəgötürənlə işçilər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət və sair bu kimi operativ vergi nəzarətinin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 63 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib və müvafiq tədbirlər görülüb.

Həyata keçirilən tədbirlər zamanı 7 vergiödəyicisi tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 4 vergiödəyicisi tərəfindən xarici valyuta məbləğinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları aşkarlanıb.

Həmçinin 23 vergiödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşınması, 10 vergiödəyicisində isə aksiz markası olmadan alkoqollu içki və tütün məmulatlarının satışı, 4 şəxsdə "Sadələşdirilmiş vergi üzrə sabit vergi məbləğinin ödənilməsi haqqında qəbz"in və 1 şəxsdə isə malların Vergi Məcəlləsi ilə tənzimlənən qaimə-faktura və ya elektron qaimə-faktura əsasında alınmaması müəyyən edilib.

Əlavə olaraq keçirilən nəzarət tədbirləri zamanı 14 şəxsin vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduqları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.

Aparılan operativ vergi nəzarəti işləri zamanı tətbiq edilmiş 4520 manat inzibati cərimə və maliyyə sanksiyası məbləğlərinin büdcəyə ödənilməsi təmin olunub.

Bəhs edilən dövrdə vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 13 vergiödəyicisində xronometraj metodu ilə müşahidələr aparılıb. Bu zaman müşahidəyədək olan dövriyyələr ilə müqayisədə 18 min 421 manat dövriyyə artımına nail olunub. Bu da hər bir obyekt üzrə orta hesabla ay ərzində 28 manata yaxın vergi məbləğinin əlavə olaraq büdcəyə ödənilməsi deməkdir.

Bu dövrdə nazirlik müvafiq icra hakimiyyəti orqanları ilə birgə tədbirlər planına əsasən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsinin Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlamaqla rəsmiləşdirilməsi, əməkhaqlarının real göstərilməsi ilə bağlı tikinti, ticarət, iaşə və digər xidmət obyektlərində araşdırmaların aparılması diqqətdə saxlanılıb. 521 işəgötürəndə aparılmış araşdırmalar zamanı 383 yeni əmək müqaviləsinin bağlanmasına və 1130 əmək müqaviləsində isə əməkhaqlarının real əməkhaqları səviyyəsində göstərilməsinə nail olunub.

**Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti**

## Yeni istehsal müəssisələrinin yaradılması daxili bazarda yerli istehsalın çəkisini xeyli artırıb

***Sahibkarlığın, özəl sektorun inkişafına normal şərait yaratmadan iqtisadi yüksəlişi təmin etmək, əhalinin məşğulluq səviyyəsini artırmaq, infrastrukturu yeniləmək, sosial məsələlərin həllinə nail olmaq mümkün deyil. Ona görə də muxtar respublikada iqtisadi sahədə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini məhz sahibkarlığın inkişafı təşkil edir.***



Sahibkarlığa göstərilən qayğı, öz növbəsində, yerli istehsalın inkişafına da şərait yaradır. Yerli istehsalın inkişaf etdirilməsi isə daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynayır. Məhz bu amil nəzərə alınaraq muxtar respublikada iqtisadiyyatın bütün sahələrində yeni istehsal və xidmət sahələri yaradılır, yaxud mövcud olanların fəaliyyətləri bərpa edilir və ya genişləndirilir.

Cari ilin ötən dövrü ərzində muxtar respublikanın rayon, qəsəbə və kəndlərinin xammal və əmək ehtiyatları nəzərə alınmaqla müasir texnologiyalara əsaslanan istehsal sahələrinin yaradılması məqsədilə yeni layihələrin sahibkarlara təqdimatı keçirilib.

Azad sahibkarlıq fəaliyyətinin geniş vüsət aldığı muxtar respublikada yerli ehtiyatlar hesabına müxtəlif növdə sənaye məhsulları istehsalının təşkili, aqrar sektorda emal sənayesinin genişləndirilməsi, sosial xidmət sahələrində kiçik və orta sahibkarlığın daha da gücləndirilməsi 2018-ci ilin ötən dövrü ərzində də prioritet sahələr kimi öz əhəmiyyətini qoruyub. Həyata keçirilmiş belə layihələr arasında sənaye və kənd təsərrüfatı sahələri olmaqla, ümumilikdə, 30 layihənin əsası qoyulub. Yaradılan bu müəssisələr hesabına 279 yeni iş yeri açılıb.

Bu tədbirlərin davamı olaraq qarışıq yem istehsalı, qaynaq çubuğu, kimyəvi tərkibli tikinti materialları istehsalı, plastik tara, tullantı yağların yenidən emalı və bərk sürtkü yağlarının, plastik səbət, xalça, yun və boyaq bitkilərinin tədarükü, Şahbuz rayonunun Badamlı qəsəbəsində "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yeni mineral su istehsalı sahəsi, heyvandarlıq, balıqçılıq, quşçuluq təsərrüfatları, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi, soyuducu anbar və müxtəlif xidmətlər üzrə 20 sahənin yaradılması davam etdirilir.

Həyata keçirilən layihələrin reallaşdırılması məqsədilə cari ilin ötən dövrü ərzində Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən 25 layihənin maliyyələşdirilməsinə güzəştli şərtlərlə 5 milyon 773 min 400 manat maliyyə dəstəyi göstərilib.

Qeyd edək ki, bu il də müxtəlif sahələr üzrə yeni istehsal müəssisələrinin yaradılması daxili bazarda yerli istehsalın çəkisini xeyli artırıb. Bunun nəticəsidir ki, hazırda muxtar respublikada fəaliyyət bərpa edilmiş və ya yenidən qurulmuş istehsal müəssisələrində 126 növdə 570 çeşiddə ərzaq, 256 növdə 884 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 382 növdə 1454 çeşiddə məhsul istehsal olunur. 108 növdə ərzaq, 242 növdə qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsi idxaldan asılılığın ciddi şəkildə azaldılmasına, əhalinin tələbatının keyfiyyətli məhsullarla ödənilməsinə şərait yaradıb.

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

## Komissiya tərəfindən keçirilən imtahanlarda obyektivlik və şəffaflıq tam təmin edilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya fəaliyyətində peşəkarlığın və keyfiyyətin artırılması, şəffaflıq və obyektivliyin təmin edilməsi, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarətin gücləndirilməsi istiqamətində tədbirləri avqust ayı ərzində də davam etdirib. Ay ərzində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində orta və böyük rəis heyəti vəzifələrinin tutulması üçün test imtahanları keçirilib. 21-22 avqust 2018-ci il tarixlərdə keçirilən test imtahanında iştirak edən 47 namizəddən 9-u müvafiq keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb. Komissiyanın Əsasnaməsinə uyğun olaraq dövlət qulluğuna qəbul olmaq istəyən 32 namizədin iştirakı ilə hazırlıq kursları təşkil edilib. Həmçinin komissiya tərəfindən dövlət qulluğuna və dövlət ümumi təhsil və ilk peşə-ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən şəxslər üçün keçirilmiş sınaq imtahanlarında 47 nəfər iştirak edib.

Komissiya tərəfindən muxtar respublikada müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün test imtahanlarına 24 avqust 2018-ci il tarixdən start verilib. Keçirilən imtahanlarda iştirak etmək üçün 527 nəfər sənəd təqdim edib. Test imtahanlarında keçid balını yığmaqla ən yüksək bal toplamış şəxslər müvafiq vəzifələrə təyin olunacaqlar.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin müraciəti əsasında vakant baş mühasib vəzifəsinin tutulması üçün keçirilmiş test imtahanında müvəffəqiyyət qazanmış 1 nəfərin müsahibə mərhələsində vakant dövlət qulluğu vəzifəsinin tutulması üçün keçirilmiş 2 daxili müsahibədə komissiyanın nümayəndəsinin iştirakı təmin edilib.

Ehtiyat kadrlarla işin təşkili diqqətdə saxlanılıb, ehtiyat kadrlar siyahısında olan 13 namizəddən 1-i vakant vəzifəyə təyin olunub.

Komissiya Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidməti ilə birlikdə "Ümummilli lider Heydər Əliyevin milliləşmə siyasəti, Azərbaycançılıq ideologiyası və dövlət qulluqçularının qarşısında duran vəzifələr" mövzusunda seminar keçirib. Seminarda komissiya tərəfindən keçirilmiş sonuncu müsabiqədə uğur qazanaraq mərkəzi icra hakimiyyəti orqanlarında və məhkəmələrdə inzibati vəzifələrə təyin olunmuş 44 dövlət qulluqçusu iştirak edib.

Avqust ayı ərzində elektron xidmətlərin təşkili həyata keçirilib, "Daxili İşlər Nazirliyində xidmətə qəbul, müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulunun aparılması üzrə qeydiyyat üçün müraciət və sənədlərin qəbulu" istiqaməti üzrə 576 nəfərə komissiya tərəfindən elektron xidmət göstərilib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti**

## Məscid binasında tikinti işləri sürətlə aparılır



Muxtar respublikamızın ayrılmaz həyat ritminə çevrilən tikinti-quruculuq və abadlıq tədbirləri bütün sahələri əhatə etməklə cari ildə də davam etdirilir. Son illərdə belə tədbirlər dini dəyərlərin qorunması və yaşadılmasına da öz töhfəsini verir. Dini mədəni abidələrin və köhnə məscid binalarının bərpası, yeni məscid binalarının tikilməsi ilə dindarların ibadəti üçün hərtərəfli şərait yaradılır. Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi isə bu sahədə görülən işlərin əhatə dairəsini xeyli genişləndirib.

Bunun ifadəsidir ki, hazırda Naxçıvan şəhərində yeni məscid binasının inşası sürətlə davam etdirilir. Bina ibadət zalı, 40 metr hündürlüyündə iki minarə, qızlar və oğlanlar üçün iki mədrəsə və kitabxanadan ibarət olacaqdır. 15 günbəzli məsciddə eyni vaxtda 2 min nəfər ibadət edə biləcək. Hazırda məscidin binasında fasad üzlənir, daxildə dəmir, beton qəlib və hörgü suvaq işləri aparılır.

Məscid binasının yerləşdiyi ərazidə Naxçıvan Muxtar Respublikası Qazisi yanında Şura üçün ikimərtəbəli inzibati və mərasim binaları da inşa olunur. İnzibati binada iş otaqları, tədbirlər zalı, kəbin otağı, kitabxana və bufet istifadəyə veriləcək. Mərasim binasında isə hər biri 224 yerlik iki zal fəaliyyət göstərəcək.

Qeyd edək ki, məscid binasının həyətində abadlıq işləri aparılacaq, mərkəzi isitmə sistemi qurulacaq və dəstəmaz yerləri yaradılacaqdır.

**Xəbərlər şöbəsi**

# İslam Mədəniyyətinin Paytaxtı Naxçıvanın tariximizdə açdığı yeni səhifə –
## *İslama münasibətin Naxçıvan modeli*

Naxçıvan hər birində tarixin bir səhifəsi həkk olunan qədim tarix və mədəniyyət abidələri şəhəridir. İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilmiş VI konfransında qəbul edilmiş qərarla Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi qədim diyarımızın bütün məziyyətləri ilə buna haqqı olduğunun təsdiqidir.

Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin 25 noyabr 2016-cı ildə keçirilən ilk iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Təşkilat Komitəsinin sədri cənab Vasif Talıbov demişdir: ***“Bu qərar əsaslıdır. Ona görə ki, Azərbaycanın 5 min illik tarixə malik qədim şəhəri olan Naxçıvan İslam mədəniyyəti nümunələri ilə zəngindir və bəşər sivilizasiyasına dəyərli töhfələr vermişdir”.***

Elə qəzetimizin redaksiyasında təşkil etdiyimiz dəyirmi masanın da əsas məqsədi əsrlərlə islami dəyərləri qoruyub saxlayaraq İslam Mədəniyyətinin Paytaxtı olmağa layiq görülən Naxçıvanın tarixində açılacaq yeni səhifələr haqqında fikir mübadiləsi aparmaqdır.

Dəyirmi masada AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli, professor, filologiya üzrə elmlər doktoru, Əməkdar elm xadimi Hüseyn Həşimli, Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin əməkdaşları Bəhruz Gülmalıyev, Sabir Xəlilov və Mərziyyə Hacıyeva iştirak edirlər.

***– Təbii ki, hər bir müsəlman şəhəri mədəniyyət paytaxtı seçilmək şərəfinə nail ola bilmir. Sizcə, bu məsələdə əsas şərtlər nələrdir?***

***Fəxrəddin Səfərli:*** – Əlbəttə, Naxçıvan şəhərinə belə bir statusun verilməsini şərtləndirən bir sıra amillər olmuşdur. Şübhəsiz ki, belə mühüm bir qərar verilərkən Naxçıvan şəhərinin keçdiyi inkişaf yolu, burada mövcud olan türk-islam mədəniyyəti abidələri, bu abidələrə, ümumiyyətlə, milli-mənəvi dəyərlərə dövlət qayğısı, bütövlükdə, Naxçıvan Muxtar Respublikasında aparılan işlər nəzərə alınmışdır. Bütün bunlarla bərabər, Naxçıvanda müasir infrastruktur yaradılmasaydı, o, paytaxt ola bilməzdi. Çünki İslam Mədəniyyətinin Paytaxtı seçilən şəhərlərdə qədimliklə müasirlik harmoniya təşkil etməlidir. Həmin paytaxt ölkə səviyyəsində mühüm tarixi keçmişə, İslam və bəşər mədəniyyətində elm, incəsənət, ədəbiyyat sahəsində töhfələrə, elmi-tədqiqat, arxeoloji təhsil mərkəzlərinə, fərdi və kollektiv şəkildə mədəni tədbirlər təşkil edən mədəni qurumlara malik olmalıdır. Naxçıvan şəhəri isə bütün bu tələblərə cavab verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018”in açılış tədbirində demişdir: ***“Beşminillik şəhər mədəniyyətinə malik olan Naxçıvan tarixən təktanrıçılığın mərkəzlərindən biri olub. İslamaqədərki dövrdə burada yaşayan Azərbaycan türkləri dini etiqad, adət-ənənə və mənəvi dəyərlər baxımından İslam dininə yaxın idilər. Ona görə də yerli əhali İslam dinini 653-cü ildə könüllü qəbul etmişdir. İslam elm, mədəniyyət, sülh və mərhəmət dinidir; mənəvi saflığa və ədalətə çağırışdır. Dünya sivilizasiyasının formalaşıb inkişaf etməsində İslam təhsilinin, elminin və mədəniyyətinin böyük rolu vardır. Bunun sayəsində qədim Naxçıvan şəhərində də zəngin tarixi-mədəni irs formalaşmışdır. Möminə xatın, Gülüstan, Qarabağlar türbələri, buzxana və hamamlar, qədim məscidlər və digər abidələr bu torpaqda yaradılmış çoxsaylı türk-islam mədəniyyətinin dövrümüzə qədər gəlib çatmış nadir nümunələridir. Bütün bunlar onu göstərir ki, İslam mədəniyyəti güclü dövlətçilik, sülh və əmin-amanlıq olan yerdə inkişaf etmiş, böyük yaradıcı gücə malik olmuşdur. Naxçıvanda türk-islam mədəniyyəti on ikinci əsrdə – Azərbaycan Atabəylər dövləti zamanında özünün intibah mərhələsinə çatmışdır. Bu dövrdə yaşayıb-yaradan memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin sənəti nəinki Azərbaycan, ümumilikdə, Yaxın Şərq və İslam memarlığında yeni bir məktəbin əsasını qoymuşdur.”***

Tam əminliklə demək olar ki, hazırda Naxçıvan şəhəri İslam Mədəniyyətinin Paytaxtı kimi bu gün keçirilən tədbirlərə yüksək səviyyədə ev sahibliyi edir.

***Bəhruz Gülmalıyev:*** – Ötən illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə çoxlu sayda müxtəliftəyinatlı tarix-mədəniyyət abidəsi bərpa olunub. Bu abidələrin əksəriyyəti türk-islam mədəniyyətinin daşıyıcılarıdır.

Bundan əlavə, son illərdə muxtar respublikada mövcud olan məscid və ziyarətgahlar da bərpa olunub, yeni məscidlər tikilərək əhalinin istifadəsinə verilib. Bu gün muxtar respublikada 211 məscid fəaliyyət göstərir. Bu məscidlərdən 72-si müstəqillik illərində tikilib. 139 məscid, 25 pir isə yenidən qurulub və ya bərpa olunub. Hazırda Naxçıvan şəhərində eyni zamanda 2000 nəfərin ibadət edə biləcəyi böyük məscid binası inşa olunur. Bütün bunlar Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsini şərtləndirən amillərdir.

*– Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2005-ci il 6 dekabr tarixdə imzaladığı “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” Sərəncam tarix və mədəniyyətimizə verilən yüksək dəyər olmaqla yanaşı, eyni zamanda sanki böyük uzaqgörənliklə Naxçıvanımızın bir gün İslam mədəniyyətinin paytaxtı olacağına hazırlanması üçün verilmişdi.*

***Fəxrəddin Səfərli:*** – Şübhəsiz ki, Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı seçilməsinə gətirib çıxaran amillər içərisində Ali Məclis Sədrinin adıçəkilən sərəncamının da böyük rolu olmuşdur. Bu sərəncama əsasən ərazidəki tarix-mədəniyyət abidələri pasportlaşdırıldı, həmin abidələr əsasında Azərbaycan və ingilis dillərində “Naxçıvan Abidələri Ensiklopediyası” hazırlandı. Ərazidəki türk-islam mədəniyyəti abidələri tədqiq olundu, 60-dan artıq abidə yüksək dövlət qayğısı ilə bərpa edildi. Deyərdim ki, Naxçıvan tarixinin və mədəniyyətinin hərtərəfli araşdırılmasına, tədqiqatların səmərəliliyinin artırılmasına 1996-cı ilin iyul ayında Naxçıvan şəhərində keçirilən “Uluslararası qaynaqlarda Naxçıvan” beynəlxalq simpoziumunda Ali Məclisin Sədri tərəfindən qarşıya qoyulan vəzifələrin icrası ilə başlanmışdır.

Simpoziumdan ötən müddət ərzində Naxçıvan Muxtar Respublikasında bir sıra tədbirlər həyata keçirildi, arxeoloji tədqiqatlar geniş miqyas aldı. Bölgədə arxeoloji ekspedisiyalar, o cümlədən ABŞ və Fransa arxeoloqlarının iştirakı ilə iki beynəlxalq ekspedisiya, Ali Məclis Sədrinin dəstəyi ilə AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası fəaliyyət göstərməyə başladı. Uğurlu nəticələrə imza atıldı. Tədqiqatlar sübut etdi ki, Naxçıvan Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən, ilkin şəhər mədəniyyətinin yarandığı ərazilərdən biri olmuşdur. Əsası bir yaşayış məskəni kimi 8000 il əvvəl qoyulmuş Naxçıvan 5000 il bundan əvvəl şəhər kimi formalaşmağa başlamışdır. Yüksək inkişaf yolu keçən Naxçıvan diyarı Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətlərinin yarandığı mərkəzə çevrilmişdir. Naxçıvanın orta əsrlər, yeni və ən yeni dövr tarixi, etnoqrafiyası, epiqrafikası, numizmatikası və sair ilə əlaqədar geniş tədqiqatlar aparıldı. Tarix elminin müxtəlif sahələri ilə məşğul olan yüksəkixtisaslı kadrlar hazırlandı. Tariximizin müxtəlif problemləri ilə əlaqədar Naxçıvan şəhərində bir sıra respublika və beynəlxalq miqyaslı simpozium və konfranslar keçirildi. Əlbəttə, bütün bunlar Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsinə öz töhfəsini verdi.




*–Təşkilat Komitəsinin son iclasında Naxçıvandakı türk-islam mədəniyyəti abidələrindən Möminə xatın, Yusif Küseyir oğlu, Gülüstan türbələrinin və Qarabağlar Türbə Kompleksinin İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESKO) siyahısına daxil edilməsi ilə bağlı müvafiq sənədlərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi də səsləndirilib. Bu, çox qürurvericidir.*

***Fəxrəddin Səfərli:*** – Qeyd etmək istərdim ki, Ali Məclis Sədrinin sərəncamı ilə ərazidəki tarix-mədəniyyət abidələri pasportlaşdırılarkən onlar dünya əhəmiyyətli abidələr sırasına daxil edilmişdir. Əlbəttə, bu abidələrin İSESKO-nun siyahısına daxil edilməsi ilə əlaqədar məsələ qaldırılmasının özü təqdirəlayiq və sizin qeyd etdiyiniz kimi qürurvericidir.

***Hüseyn Həşimli:*** – Adıçəkilən abidələrin İSESKO-nun siyahısına daxil edilməsi qədim tariximizə müasir dövrün insanlarının əvəzsiz töhfəsidir.

*– Ailə dəyərləri İslam dininin zirvəsində dayanır. Mənə elə gəlir ki, elə bir din tapmaq çətindir ki, orada ailəyə İslam dinində olduğu qədər dəyər verilsin.*

***Bəhruz Gülmalıyev:*** – İslamda ailə dəyərləri də müstəsna yer tutur. Bu din ailəni insan həyatının mühüm amillərindən biri hesab edir. Çünki ailə olmadan insanların qarşılıqlı əlaqələrini və bütövlükdə insan cəmiyyətini təsəvvür etmək çətindir. Məhəmməd Peyğəmbərin yaratdığı ailə modelinə əsaslanan ailələrimizdə həmin qaydalar bu gün də yaşadılmaqdadır. Xüsusilə də ailə hüququ, ailədə kişi və qadının hüquq və vəzifələri, övlad tərbiyəsi və başqa bu kimi çoxsaylı məsələlər yalnız bu dinə məxsus üstün cəhətlərdir.

Azərbaycanın ailə modelini öyrənən avropalı mütəxəssislər bu məsələdə onlardan daha çox irəli getdiyimizi bildirərək bu modeli elm kimi öyrənməyi düşünürlər.

*– Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunan “Oxunması zəruri olan kitablar”ın siyahısında “İslamda müdrik kəlamlar”, Nəsirəddin Tusinin “Əxlaqi-Nasiri”, “Mister Hemferin xatirələri” kimi dəyərli əsərlərin yer alması da dinin düzgün öyrənilməsi, oradakı humanizmin, dünyəviliyin aşılanması baxımından çox əhəmiyyətlidir.*

***Hüseyn Həşimli:*** – “Oxunması zəruri olan kitablar” haqqında Sərəncam, ümumilikdə, Azərbaycan cəmiyyəti tərəfindən yüksək səviyyədə qarşılandı. Bu kitabların, eləcə də islami dəyərləri aşılayan və dini düzgün təbliğ edən adlarını sadaladığınız kitabların oxunmasının gənc nəslə tövsiyə olunması isə sözün əsl mənasında, onların hərtərəfli yetişməsinə göstərilən canıyananlıqdır.

***Sabir Xəlilov:*** – Hər bir gəncin oxuması vacib olan “Mister Hemfer xatirələri” kitabı isə dini radikalizmə qarşı mübarizədə əvəzsiz mənbədir.

*– Söz yox ki, Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı olması onun zəngin turizm potensialını da ortaya qoyur.*

***Fəxrəddin Səfərli:*** – Kütləvi informasiya vasitələrindən də məlumdur ki, blokada şəraitində olmasına baxmayaraq, Naxçıvana gələn turistlərin sayı ildən-ilə artır. Çünki bəşər sivilizasiyasının, insanların ilk yaşayış məskənlərindən biri olan Naxçıvan ərazisi müxtəlif ölkələrə mənsub turistləri maraqlandıran abidələrlə, obyektlərlə zəngindir. Naxçıvanın adı müqəddəs kitabımız “Qurani-Kərim”də xatırlanan Əshabi-Kəhf ziyarətgahı, 1500-dən artıq qayaüstü rəsmi əhatə edən Gəmiqaya abidəsi, Nuh Peyğəmbərin yadigarı Haçadağ, dünyanın ən qədim duz mədənlərinin yerləşdiyi Duzdağdakı Fizioterapiya Mərkəzi, bənzərsiz və təkrarsız İslam memarlığı abidələri, orta əsr şəhərsalma mədəniyyətini bu günədək qoruyub saxlayan Ordubad şəhəri, gözəl təbiəti, təmiz havası, saf suyu ilə seçilən Batabat yaylağı və digərləri turistləri ən çox cəlb edən məkanlardır. Şübhəsiz ki, Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə muxtar respublikaya gələn xarici ölkə, xüsusilə kütləvi informasiya vasitələrinin nümayəndələri bu gözəllikləri görür, onlar foto və videoçəkilişləri haqqında məlumatları öz ölkələrində nümayiş etdirirlər. Bu isə müxtəlif ölkə vətəndaşlarının Naxçıvanın turizm potensialı ilə bağlı məlumat əldə etməsinə, nəticədə, Naxçıvana turistlərin axınının güclənməsinə gətirib çıxarır.

*– Bir il sonra geriyə baxanda İslam Mədəniyyətinin Paytaxtı kimi yaşayan Naxçıvanın ümumi mənzərəsində nələri görəcəyik?*

***Hüseyn Həşimli:*** – Bütövlükdə İslam mədəniyyəti Şərqin, o cümlədən Azərbaycanın milli-mənəvi dəyərlər sistemində mühüm yer tutur. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi də bu baxımdan böyük əhəmiyyət daşıyır. Minnətdarlıqla qeyd edirik ki, indiyədək həmin istiqamətdə görülmüş işlər, həmçinin iyunun 20-də muxtar respublikamızın paytaxtında bu münasibətlə keçirilən möhtəşəm açılış tədbiri qədim diyarımızın zəngin, çoxşaxəli mədəniyyət tarixinin və çağdaş yüksəlişinin parlaq təzahürü, mədəni tərəqqinin təntənəsi kimi İslam aləmində, ümumən, dünyada geniş əks-səda oyatmışdır. İllər sonra da geriyə baxanda bunları görə biləcəyik.

***Mərziyyə Hacıyeva:*** – İslam Mədəniyyəti Paytaxtının Naxçıvanın tarixində açdığı yeni bir səhifədə tədbirə çoxsaylı ölkələrdən gələn qonaqların xoş xatirələrini oxuyacağıq.

***Sabir Xəlilov:*** – Mən bu sualı İSESKO-nun Baş direktoru Əbdüləziz Osman əl-Tuveycrinin açılış mərasimində söylədiyi fikirlər əsasında cavablandırmaq istəyirəm: *“Mən ilk dəfədir, Azərbaycanın Naxçıvan Muxtar Respublikasına gəlirəm. Naxçıvanı kəşf etdikcə belə bir qənaətə gəlirəm ki, bura cənnətdir. İslam tarixinin bir parçası olan Naxçıvan İslamın olduğu kimi təbliğinə öz töhfəsini verir...”* Bu fikirlər artıq 2018-ci ili İslam Mədəniyyətinin Paytaxtı kimi yaşayan Naxçıvanın ümumi mənzərəsinə həkk olunub.

***– Bəs, görəsən, dünya tarixində blokada şəraitində olan bir ölkədə və ya diyarda belə böyük tədbir keçirmək mümkün olubmu? Yoxsa bu, tək Naxçıvan nümunəsi olaraq tarixin yaddaşına həkk olunacaqdır?***

***Fəxrəddin Səfərli:*** – Şübhəsiz ki, blokada hər bir ölkə və ya diyar üçün çox böyük fəlakətlərə səbəb olur, çətinliklər və problemlər yaradır. Ona görə də belə bir şəraitdə nəinki mötəbər tədbirlərin keçirilməsindən, heç inkişafdan da söhbət gedə bilməz. Bu cəhətdən Naxçıvan Muxtar Respublikası istisnalıq təşkil edir. Məlum olduğu kimi, muxtar respublikamız 30 ilə yaxındır ki, blokada şəraitində yaşayır. Buna baxmayaraq, bölgə son 23 il ərzində çox böyük inkişaf yolu keçmişdir. Bu il mayın 16-da ölkə başçısı cənab İlham Əliyev Naxçıvanda Müəllimlər İnstitutunun açılış mərasimində çıxış edərkən bu inkişafı, xüsusilə son 15 ildə ümumi daxili məhsulun on dəfəyə yaxın artdığını vurğuladı və bunu dünya miqyasında rekord göstərici kimi dəyərləndirdi. Məhz dünyada analoqu olmayan bu inkişafa görə muxtar respublikada aparılan işləri obrazlı şəkildə “Naxçıvan möcüzəsi” adlandırırlar. İyun ayının 20-də İSESKO-nun Baş direktorunun, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Baş katibinin, 10-dan artıq İslam ölkəsinin mədəniyyət nazirinin və nazir müavinlərinin, diplomatik nümayəndələrinin iştirak etdiyi “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”in açılış tədbiri isə bütün dünyanın diqqətini tarix qədər qədim Naxçıvana yönəltdi. Fikrimizcə, 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilən Naxçıvan şəhəri sadaladığımız bütün cəhətləri ilə yeganə nümunə olaraq böyük iz buraxacaq və tarixin yaddaşına əbədi olaraq həkk olunacaqdır.

*– Dəyərli fikirlərinizə görə hər birinizə minnətdaram. Yəqin, siz də Təşkilat Komitəsinin üzvü, akademik İsa Həbibbəylinin bu dəyərli fikirləri ilə razılaşarsınız. O deyir: “Bu torpaqda böyük mədəniyyət formalaşıb. Naxçıvan abidələrində islami dəyərlər və dünyəvilik vəhdətdə götürülüb. Nəticədə, Naxçıvanda İslam dininə cəhalət və fanatizmdən uzaq yeni bir baxış – elmi və mədəni yanaşma formalaşmışdır. Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi və bununla bağlı görülən işlər İslama münasibətin Naxçıvan modeli, əslində isə ümumdünya miqyasında gerçək İslam modelidir”.*

**Hazırladı:** Mətanət MƏMMƏDOVA

## Naxçıvan Dövlət Teleradiosunun yaradıcılıq imkanları genişləndirilir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2018-ci il fevralın 6-da "Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamış, Tədbirlər Planı təsdiq olunmuşdur. Bu Sərəncam kütləvi informasiya vasitələrinin fəaliyyətinin gücləndirilməsi və yaradıcılıq imkanlarının artırılması sahəsində görülən işlərin davamı kimi mühüm əhəmiyyətə malikdir.*

Tədbirlər Planında teleradioda yaradıcılıq məsələləri, kadr hazırlığı və maddi-texniki bazanın gücləndirilməsi sahəsində vəzifələr müəyyənləşdirilmiş və icrasına başlanılmışdır.

Yaradıcılıq məsələləri sahəsində qarşıya qoyulan vəzifələrin icrası teleradionun fəaliyyət imkanlarını xeyli genişləndirmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 7 fevral tarixli Qərarı ilə Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin ştat cədvəlində müvafiq dəyişiklik edilmiş, televiziyada "İnformasiya təminatı və saytlarla iş üzrə redaksiya" və 6 nəfərdən ibarət "Xalq çalğı alətləri ansamblı" yaradılmışdır. Ansambl 2018-ci ilin avqust ayından fəaliyyətə başlamışdır. Bundan başqa, iyunun 15-də teleradionun efir vaxtı daha bir saat artırılaraq 18 saatdan 19 saata çatdırılmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin 2018-ci il 1 aprel tarixli kollegiya qərarı ilə "Nuhçıxan" İnformasiya Agentliyi yaradılmış, agentliyin nizamnaməsi təsdiq edilmiş və 2018-ci il aprelin 5-də Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Mayın 15-də Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsində "Nuhçıxan" İnformasiya Agentliyinin təqdimatı olmuşdur. Agentliyin *nuhcixan.az* internet saytı hazırlanmışdır. Saytda Azərbaycan, ingilis və rus dillərində informasiyalar yerləşdirmək mümkündür.




Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamlarının, qəbul edilmiş qanunların və dövlət proqramlarının *naxcivantv.az* və *nuhcixan.az* saytları üzərindən operativ yayımlanması istiqamətində verilən tapşırıqlar da icra olunur. Tədbirlər Planında *naxcivantv.az* saytının elan etdiyi "Dörd fəsildə Naxçıvan" fotomüsabiqəsində təqdim edilən fotolardan ibarət albom-kataloqun hazırlanması və nəşr olunması nəzərdə tutulur. 2018-ci ilin dekabrında müsabiqənin yekun tədbiri və albom-kataloqun təqdimatı keçiriləcəkdir.

Televiziyada həftədə bir dəfə xəbərlərin rus dilində də yayımlanmasına başlanılmış və bu iş üçün kadrlar hazırlanmışdır. Artıq cari ilin avqust ayından etibarən xəbərlərin rus dilində təqdimatı həyata keçirilir. Muxtar respublikanın tarixi, mədəniyyəti, turizm potensialı və görkəmli şəxsiyyətləri ilə bağlı filmlərin hazırlanması da diqqətdə saxlanılmış, ötən dövrdə "Şərqdə doğan günəş", "Azərbaycanlıların soyqırımı", "Tanrının Duzdağ möcüzəsi", "Naxçıvan geyimləri", "Vətən uğrunda", "Naxçıvanın daş küftəsi", "Süzüt qalası", "Hər birimizin Prezidenti", "Babək rayonu: dünən və bu gün", "Yastı balaban", "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan", "Daşqala mağarası", "Naxçıvan xanlığı", "Heydər Əliyev və Naxçıvan", "Xalq Cümhuriyyəti və Naxçıvan", "Şərqin polad yolları" filmlərinin çəkilişi başa çatdırılıb. Hazırda "Naxçıvan mətbəxi" və "Nəğməyə dönən ömür – İslam Səfərli" filmlərinin çəkilişləri davam etdirilir.

Teleradioda diqqətdə saxlanılan əsas məsələlərdən biri də kadr hazırlığıdır. Bu sahədə işlər davam etdirilir. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə Bakı şəhərindən mütəxəssis dəvət olunaraq 15 iyul-15 avqust tarixlərində kinooperatorlar üçün təkmilləşdirmə kursu keçirilmiş, kursda televiziyanın bütün kinooperatorları iştirak etmişdir. Teleradioda Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə təhsil alan tələbələri üçün istehsalat təcrübələrinin təşkili gənc kadrların seçilib işə götürülməsində mühüm əhəmiyyətə malikdir. Bu sahədə işlər davam etdirilmiş, 2018-ci ilin fevral-avqust aylarında 13 gənc kadr televiziyanın "Xəbərlər" redaksiyasında işə götürülmüşdür.




Maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində görülən ardıcıl tədbirlər, alınan ən müasir teleradio avadanlıqları işin keyfiyyətinə müsbət təsir göstərir. Tədbirlər Planında maddi-texniki bazanın möhkəmləndirilməsi sahəsində vəzifələr müəyyənləşdirilmişdir. Belə ki, "Xəbərlər" redaksiyasının studiyalarının yenidən qurulmasına başlanılmış, "Dizayn" inşaat tərəfindən studiyaların layihəsi hazırlanmışdır. Bu istiqamətdə işlər davam etdirilir.





Səyyar çəkilişlər, o cümlədən *nuhcixan.az* və *naxcivantv.az* saytlarının foto təminatı üçün 2018-ci ilin iyun ayında ümumi dəyəri 166 min 300 manat olan 22 adda yeni avadanlıqlar alınaraq televiziyaya təqdim edilmişdir. Əlavə olaraq 2 videokameranın alınması üçün 24 min 303 manat vəsait köçürülmüşdür. Bundan başqa, xalq yaradıcılığı mövzusunda verilişlərin çəkilişlərində istifadə üçün 5 ədəd qadın, 5 ədəd kişi milli geyimləri "Möminə xatın" Milli Moda Evində hazırlanmış və hazırda çəkilişlərdə istifadə olunur.

Həyata keçirilən tədbirlər Naxçıvan Dövlət Televiziya və Radiosunun yaradıcılıq imkanlarını daha da artıracaqdır.

***"Şərq qapısı"***

## Tariximizin möhtəşəmlik səhifəsi




***Qədim Naxçıvan diyarında çoxsaylı tarixi abidələr mövcuddur. Hər bir abidə də tarixinə, tikilişinə, memarlıq xüsusiyyətinə görə fərqli çalarları özündə əks etdirir. Naxçıvanın mühüm memarlıq abidələri sırasında möhtəşəmliyi ilə ilk olaraq diqqəti özünə çəkən Əlincə qalasıdır. İnşası iki min il bundan əvvələ gedib çıxan qalanın yerləşdiyi coğrafi mövqeyi, əsrarəngiz görüntüsü yüz illər bundan əvvəl olduğu kimi, bu gün də buraya yolu düşənləri heyran edir. Əlincəqala, eyni zamanda Naxçıvanın mübarizlik simvolu kimi tanınır. Çünki uzun illər yadelli işğalçıların mübarizə meydanına çevrilmiş qala fatehlərin, böyük hökmdarların qarşısında dizini yerə vurmayıb. Əksinə, mərdliklə mübarizə apararaq Naxçıvanın qədim hərb tarixinə adını qızıl hərflərlə yazdırıb. Bu qalanın möhtəşəmliyi, məğlubedilməzliyi haqqında kimlər söz söyləməyib, kimlər tərif deməyib ki?***

Qala əsrlərboyu strateji obyekt kimi Azərbaycan ərazisində mövcud olmuş feodal dövlətlərin nəzarətində olub. Bu qalanın Atabəylər dövründə dövlət üçün nə dərəcədə əhəmiyyətli olduğunu Sədrəddin Əli əl-Hüseyni "Əxbar əd-dövlət əs-Səlcuqiyyə" əsərində də qeyd edir. Onun yazdıqlarından aydın olur ki, ilk Eldəniz hökmdarları dövründə İraq və Azərbaycandan yığılan bütün gəlirlər məhz Əlincəqaladakı xəzinədə toplanmışdır. Hətta bəzi dövrlərdə buradakı xəzinəyə sahiblənmək uğrunda ciddi mübarizə getmişdir. Qalanın müdafiə sistemi o dərəcədə möhkəm olmuşdur ki, hətta bir çox Eldəniz hökmdarları ən çətin vaxtlarda məhz Naxçıvana sığınmağa çalışmışlar. Mənbələrdə də bununla bağlı məlumatlar var. Məsələn, sonuncu Atabəy Özbəyin dövründə dövlətin Təbrizdən idarə olunmasına baxmayaraq, dağıdıcı monqol hücumlarından canını qorumaq üçün o, ilk növbədə, Naxçıvanda məskunlaşmağa çalışmışdı. İbn əl-Əsir 12 cildlik "Mükəmməl tarix" əsərində bu haqda yazır: "Təbrizin əsl hakimi Özbək Pəhləvan oğlu oranı buraxıb getmişdi. Çünki o, fəaliyyətsiz bir əmir idi. ...Tatarların Həmədandan çıxıb gəlməkdə olduqlarını eşitdikdə özü Təbrizi buraxıb Naxçıvana getmiş və ailəsini özündən uzaqlaşdırmaq üçün Xoya göndərmişdi". Məlumatlardan o da aydın olur ki, Özbək Naxçıvana gəldikdən sonra Əlincəqalaya çəkilmişdir. Azərbaycan Atabəylər dövlətinin ən qüdrətli dövrlərində buranın xüsusi iqamətgaha çevrilməsi, dövlət xəzinəsinin məhz Əlincəqalada gizlədilməsi ərazinin və qalanın əhəmiyyətini bir daha göstərir.

Tarixi mənbələrdə məlumat verilir ki, Əlincə XIII-XIV əsrlərdə Hülakülərin, XIV əsrin ikinci yarısında isə Cəlairilərin hakimiyyəti altında olmuşdur. XIV əsrin 80-90-cı illərində qala dünyanın ən güclü hərbi qüvvələrini məğlubiyyətə uğradan Əmir Teymura qarşı mübarizənin əsas istinadgahına çevrilmiş və 14 il mərdliklə müdafiə olunmuşdur.

Əlincəqalanın xatırlandığı ən qədim mənbə "Kitabi-Dədə Qorqud" dastanıdır. Əlincəqala haqqında tarixçilərdən Nəsəvi (XIII əsr), Şərafəddin Əli Yəzdi (XV əsr), türk səyyahı Övliya Çələbi (XVII əsr) və başqaları məlumat vermişlər. Ancaq Əlincəqala uzun illər müasir tarixin diqqətindən kənarda qalıb. İnsanlar onun adını rəvayətlərlə xatırlayıb.

Sevindirici haldır ki, müstəqilliyimizin ikinci baharında muxtar respublikamızın digər tarixi abidələri kimi, Əlincə qalası da yenidən elmi əsaslarla bərpa olunaraq xalqımızın yaddaşına qaytarılıb. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamının icrası ilə əlaqədar muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələri qeydə alınıb pasportlaşdırılarkən Əlincəqala haqqında da məlumatlar toplanılıb. Bu abidə 2007-ci ildə dünya əhəmiyyətli abidələrin siyahısına daxil edilib. 2014-cü ilin 11 fevral tarixində isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncam imzalanıb. Bu sərəncamdan sonra başlanılan bərpa zamanı qalaya qalxmaq üçün düzəldilmiş yolda daş pilləkənlər salınıb, pilləkənlərin sağ və sol tərəflərində yağış və sel sularından qorunmaq üçün arxlar qurulub. Qalanın qapılarına, bürcləri əhatələyən divarlarına yeni həyat verilib, ərazidəki daş hovuzlar təmizlənib, hovuzları su ilə təmin edən daş arxlar əvvəlki vəziyyətinə qaytarılıb. Bundan əlavə, qalanın daha hündür hissəsinə gedən yolda daş qayalar kəsilərək pillələr yaradılıb, həmçinin Xanəgah kəndi istiqamətinə baxan digər qala qapısının divarları da bişmiş kərpiclə bərpa olunub. Eyni vaxtda aparılan bərpa işləri zamanı ərazidə iki otaq və ekspozisiya zalından ibarət "Əlincəqala" Muzeyi də yaradılıb. Ekspozisiya zalında ümummilli lider Heydər Əliyevin ***"Əlincəqala və bir çox belə abidələr Naxçıvanın qədim Azərbaycan torpağı olduğunu, azərbaycanlıların burada əsrlərlə, min illərlə yaşayıb yaratdığını göstərir"*** fikri, Əlincəqalada məskunlaşan insanların həyat tərzini əks etdirən maddi-mədəniyyət nümunələri, xüsusilə qədim məişət əşyaları, qalada aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi nümunələr, Naxçıvanın və Əlincəqalanın tarixi ilə bağlı nəşrlər, bərpadan əvvəl, bərpa zamanı və bərpadan sonrakı fotoşəkilləri nümayiş etdirilir.



*Toğrul Nərimanbəyov "Əlincəqalanın müdafiəsi"*

Qalanın zirvəsinə gedən yolda daş üzərində həkk olunan "Tarixi yaşadanları tarix də yaşadacaqdır" fikri Əlincəqalanın bərpasının xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıdığını bir daha təsdiq edir.

*Bu gün Əlincəqalanın zirvəsində Azərbaycanımızın üçrəngli bayrağı dalğalanır. Bu bayraq qalanın möhtəşəmliyini təbliğ etməklə yanaşı, həm də Əlincənin milli dövlətçiliyimizin inkişafındakı yerini göstərir.*

**Gülcamal TAHİROVA**

*Gənclər Paytaxtının gəncləri*

# Gənc kadrlara böyük etimad göstərilir

***Muxtar respublikamızda prioritet sahələrin inkişafına hesablanan istiqamətlərdən biri də dövlət gənclər siyasətidir. Bu siyasətin əsas məqsədi gənclərin intellektual səviyyəsinin artırılması, elmə, təhsilə yiyələnmələri, onların Azərbaycançılıq ideologiyasına, milli-mənəvi dəyərlərə, Vətənə, xalqa, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunmaları, dövlət strukturlarında geniş təmsil edilmələri üçün hərtərəfli şəraitin yaradılmasıdır. Bütün bu məsələlərin həlli gənclərimizə göstərilən diqqət və qayğının, etimadın ifadəsidir. Aparılan məqsədyönlü gənclər siyasətinin nəticəsidir ki, Naxçıvan şəhəri bu il ölkəmizin Gənclər Paytaxtı seçilib.***

Hər bir naxçıvanlı gənc muxtar respublika paytaxtının bu adı daşımasından fəxarət hissi keçirir, qürur duyur. Gənclər Paytaxtının gəncləri bu gün digər strukturlarda olduğu kimi, səhiyyə sistemində də səmərəli fəaliyyət göstərirlər. Son illər Naxçıvan səhiyyəsində yüksəkixtisaslı gənc həkimlərin sayı xeyli artıb. Təkcə bu ilin ötən 7 ayında isə səhiyyə müəssisələrində işlə təmin olunan 18 həkim və 72 tibb işçisinin əksəriyyətini gənclər təşkil edir. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Reanimasiya və cərrahiyyə şöbəsinin həkim-reanimotoloq və anestezioloqu Cabir Həsənov da onlardan biridir. Güman edirəm ki, onunla tanışlıq, ilk növbədə, valideynlərin işinə yarayacaq.

***– Öncə sizi tanıyaq: Cabir Həsənov kimdir?***

– Babək rayonunun Sirab kəndində doğulmuşam. 2003-2009-cu illərdə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində təhsil almışam. 2009-2010-cu illərdə Türkiyə Respublikası Kocaeli Universitetinin Pediatriya ixtisası üzrə internanı bitirdikdən sonra 2011-ci ildə Naxçıvana gəlib uşaq xəstəxanasının Reanimasiya və intensiv terapiya şöbəsində ilk həkimlik fəaliyyətimə başlamışam. 2017-ci ildə yenidən Kocaeli Universitetində Reanimasiya və anesteziologiya üzrə kurs keçərək müasir anesteziologiyanın sirlərinə yiyələnməyə çalışmışam. Hazırda doğma kollektivə qayıdaraq uşaq xəstəxanasının Cərrahiyyə şöbəsində pediatrik anestezioloq kimi fəaliyyətimi davam etdirirəm.

***– Cərrahiyyədə anesteziologiyanın rolu nədən ibarətdir?***

– Anesteziologiya keyləşdirmə, ağrısızlaşdırma mexanizmini, üsul və metodlarını öyrənən, tətbiq edən tibb sahəsidir. Anesteziologiya-reanimotologiya təbabətin bütün sahələrində tətbiq edilir. Səhiyyənin elə bir sahəsi yoxdur ki, orada anestezioloq-reanimotoloqa ehtiyac olmasın. Hazırda muxtar respublikanın səhiyyə sistemində aparılan geniş islahatlar, əhalinin sağlamlığına göstərilən dövlət qayğısı sayəsində yüksəkixtisaslı anestezioloji və reanimotoloji yardımın göstərilməsi üçün müasir standartlara cavab verən müvafiq maddi-texniki baza yaradılıb, şəhər və rayonlarda fəaliyyət göstərən xəstəxanalarda bu istiqamətdə



yüksək tibbi xidmət təşkil olunub. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən anestezioloji xidmətin koordinasiyasına ciddi nəzarət edilməsinin nəticəsidir ki, həkimlərimiz qonşu Türkiyədə ixtisaslaşır və muxtar respublikamıza qayıdaraq fəaliyyətlərini davam etdirirlər. Bu isə səhiyyə müəssisələrində anestezioloq ixtisası üzrə kadr çatışmazlığının aradan qaldırılmasını təmin edir.

***– Cabir həkim, çalışdığınız şöbədə nəzəri bilikləri tətbiq etmək üçün hansı şərait var?***

– Cərrahiyyə şöbəsi pediatrik xəstələrin xəstəxanada ən çox üz tutduqları şöbədir. Bura 14 çarpayılıqdır. Şöbədə təhlükəsiz və müasir standartlara cavab verən müasir tibbi avadanlıqlar quraşdırılaraq istifadəmizə verilib. Çalışdığım 6 çarpayılıq Reanimasiya şöbəsində də süni tənəffüs, infuzion aparatları, monitorlar, mərkəzi oksigen sistemi mövcuddur. Təşkil olunan bütün bu şərait həkim və orta tibb işçilərinin xəstələrə yüksək səviyyəli xidmət göstərmələrinə, daha təhlükəsiz və uğurlu əməliyyatların keçirilməsinə şərait yaradır.

Söhbətimizin əvvəlində qeyd etdiyim kimi, mən Reanimasiya və intensiv terapiya şöbəsində əvvəllər də çalışmışam. Bu şöbəyə müraciət edən hər ağır xəstənin vəziyyətdən çıxması bizim üçün böyük uğurdur. Bütövlükdə, xəstəsinin sağalması hər bir həkimin, mən deyərdim ki, ömür payıdır.

***– Yüksəkixtisaslı gənc həkimlərdən gözləntilər daha çoxdur. Bu isə ikiqat məsuliyyət tələb edir.***

– Elədir. Bütövlükdə, hər bir həkimin əsas vəzifəsi əhalinin sağlamlığı keşiyində dayanmaqdan ibarətdir. Anestezioloq kimi mən belə hesab edirəm ki, əsas vəzifəm uşaq cərrahiyyəsinin inkişafına öz töhfəmi verməkdən, burada əməliyyat olunan xəstələrə daha təhlükəsiz xidmət göstərilməsi üçün əlimdən gələni etməkdən ibarətdir. Əməliyyata ehtiyacı olan uşaq əhalisinin maddi və mənəvi əziyyətlər hesabına başqa şəhərlərə üz tutmadan daha yaxşı cərrahi müalicə alması hər bir yerli həkimin arzusudur. Çalışdığım Cərrahiyyə şöbəsində əməliyyat olunacaq xəstələr əvvəlcədən bütün müayinələrdən keçirilir və əməliyyat olunurlar. Sonrakı dövr də bizim üçün önəmlidir. Belə ki, əməliyyat keçirən xəstələr Reanimasiya şöbəsində həkim müşahidəsi altında saxlanılır. Bu şöbədə uşaqlarda kriptorxizm, hidrosel, varikosel, apendisit, bağırsaq keçməzliyi və digər cərrahi əməliyyatlar aparılır.

***– Gənc kadrlar əmək fəaliyyətinə başladığı ilk vaxtlarda çətinliklərlə də üzləşirlər. Yəqin ki, siz də istisna deyilsiniz?***

– Elə vaxtlar olub ki, müəyyən çətinliklərlə üzləşmişəm, amma bilmədiklərimi öyrənməkdən çəkinməmişəm, həmkarlarımı köməyə çağırıb onlardan məsləhətlər almışam. Konsiliumlarda iştirakım daim öz faydasını verib. Burada öyrəndiklərim bir də odur ki, bacarıqlı həkim savadlı olmaqdan başqa, peşəkar psixoloq, vicdanlı insan, həm də hamı ilə dil tapa bilən, ünsiyyətcil olmalıdır. Çalışdığım xəstəxanada beləl追 ilə çiyin-çiyinə işləmək mənim üçün xoşdur. Ağır anları xəstəsi ilə bərabər yaşayan, onu xilas etməyə çalışan, onunla xəstələnib onunla sağalan, kiminsə həyatının məsuliyyətini yaşayan, həyativacib qərarlar qəbul edən təcrübəli həkimlərimiz çoxdur və hər biri uzmanlıq keyfiyyətlərinə malikdir. Onlardan öyrəndiklərim budur ki, iş, professionallıq çox önəmlidir, amma insanlarla münasibət, sayğı, prinsiplərə sadiq qalmaq və dürüstlük bunlardan da önəmlidir.

Çalışdığım qısa zaman kəsiyində əvvəlki iş yerlərimlə müqayisələr aparıb həkimlərimizin bilik və bacarıqlarının başqalarından heç də az olmadığına bir daha inanmışam. Bu əminlik deməyə imkan verir ki, xəstələrin maddi və mənəvi əziyyətlər bahasına müalicə üçün uzaq ünvanlara üz tutmalarına ehtiyac yoxdur. Doğma Naxçıvanımızda onların müalicəsi üçün hər bir şərait var. Yetər ki, sağlamlığınızı bizim həkimlərimizə etibar edəsiniz!

**Hüseyn ƏSGƏROV**

# Dilçi alimlərlə görüş olub

*AMEA Naxçıvan Bölməsində AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu və Azərbaycan Dillər Universitetinin müəllimi, professor Adil Babayevlə görüş keçirilib.*

Tədbirdə ilk çıxış edən bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev Azərbaycan dilinin saflığının qorunması və inkişafı istiqamətində ölkəmizdə həyata keçirilən islahatlardan danışıb.

Sonra akademik Möhsün Nağısoylu çıxış edərək Azərbaycan dili və dilçilik elminin qarşısında duran hədəflərdən bəhs edib. Dilçi alim qeyd edib ki, respublikada dil siyasətinin birmənalı şəkildə formalaşdırılması, ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəldilməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

“Ölkəmizdə dil siyasəti bu gün ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir”, – deyən alim dövlət başçısının 2004-cü il 12 yanvar tarixli “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” və 2012-ci il 23 may tarixli “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın hazırlanması barədə imzaladığı sərəncamları xatırladıb. Vurğulayıb ki, AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncağında Prezident İlham Əliyevin dərinməzmunlu nitqində diqqət mərkəzinə çəkdiyi bir sıra məsələlərdən biri də ana dilimizlə bağlı idi. Dilçi alim rəhbərlik etdiyi institutun əməkdaşlarının ana dilimizlə bağlı həyata keçirdikləri tədbirlərdən və qarşıda duran vəzifələrdən söz açıb.

Professor Adil Babayev isə çıxışında dilimizlə bağlı aktual məsələlərə toxunub. O, ümummilli lider Heydər Əliyevin ***“Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir”*** sözlərini xatırladaraq XX əsrdə Azərbaycan dilinə olan münasibəti müxtəlif arxivlərdən topladığı sənədlərin dili ilə tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Sonra dilçi alimlər bölmə əməkdaşlarının suallarını cavablandırıblar.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

# Üzgüçülük üzrə şəhər birinciliyi keçirilib

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin birgə təşkil etdiyi qızlar arasında üzgüçülük üzrə şəhər birinciliyinə yekun vurulub.



Kompleksin Üzgüçülük Mərkəzində məktəblilərin yay tətilinin səmərəli təşkili və onları sağlam həyat tərzinə uyğunlaşdırmaq məqsədilə keçirilən birincilikdə idmançılar üzgüçülüyün sərbəst üsulu üzrə 25 metr məsafəni qət ediblər. 4 yaş qrupu üzrə 30 idmançı mübarizə aparıb.

Sonda hər yaş qrupunda yer tutan idmançılar diplomlarla təltif olunublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2018-ci ilin avqust ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 4459 | 325,5 | 325,5 | 100,0 |
| 2. | Şərur rayonu | 2807 | 197,6 | 197,6 | 100,0 |
| 3. | Babək rayonu | 2457 | 173,2 | 173,2 | 100,0 |
| 4. | Ordubad rayonu | 1421 | 100,2 | 100,2 | 100,0 |
| 5. | Culfa rayonu | 956 | 68,3 | 68,3 | 100,0 |
| 6. | Kəngərli rayonu | 718 | 50,6 | 50,6 | 100,0 |
| 7. | Şahbuz rayonu | 293 | 20,7 | 20,7 | 100,0 |
| 8. | Sədərək rayonu | 170 | 12,0 | 12,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 26884 | 2419,6 | 2419,5 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **40165** | **3367,7** | **3367,6** | **100,0** |

**Qeyd:** Avqust ayında texniki itki nəzərə alınmaqla daxil olan 40 milyon 165 min kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 367 min 700 manat olmuş, cəmi 3 milyon 367 min 600 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2018-ci ilin avqust ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 378194 | 40370 | 40453 | 100,2 |
| 2. | Kəngərli rayonu | 237010 | 25490 | 25525 | 100,1 |
| 3. | Culfa rayonu | 280250 | 30383 | 30412 | 100,1 |
| 4. | Şahbuz rayonu | 211373 | 23344 | 23361 | 100,1 |
| 5. | Sədərək rayonu | 66905 | 6864 | 6867 | 100,0 |
| 6. | Naxçıvan şəhəri | 828014 | 96483 | 96501 | 100,0 |
| 7. | Şərur rayonu | 554765 | 58813 | 58816 | 100,0 |
| 8. | Babək rayonu | 561032 | 63701 | 63701 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 8177454 | 1121447 | 1084932 | 96,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **11294997** | **1466895** | **1430568** | **97,5** |

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 627